AtaHolding
Sinerji, Azərbaycan üçün

**AH010/08.2022**
**04.08.2022**

**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri**

**Cənab Anar Bağırova**

**Hörmətli Anar müəllim,**

Sizin rəhbərliyinizlə Vəkillər Kollegiyasında qısa zaman çərçivəsində aparılan islahatlar nəticəsində vəkillik peşəsinin müqəddəsliyi, insanların vəkillərə olan inamını və eyni zamanda vəkillərin öz Kollegiyaya inamını bərpa edə bildiniz. Beynəlxalq tədbirlərdə çıxışlarınızla Respublikamızda köklü islatların aparılmasını beynəlxalq aləmə çatdırmaqla, eyni zamanda Vəkillər Kollegiyasının nüfuzunu artırmış olursunuz.

Hüquqi müstəvidə insanlara vəkillik xidməti göstərmək, hər bir şəxsin, istər fiziki, istərsə də hüquqi şəxslərin öz hüquqlarını onlara anlatmaq və onların hüquqlarını qanunun aliliyi çərçivəsidə bütün icra orqanlarında müdafiə etmək zəhmət tələb edir, iddiaçı-cavabdeh müstəvisində səbr tələb edir. Bu xüsusiyyətləri biz iddiaçı "AtaHolding" MMC-nin, cavabdeh İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş idarəsi ilə məhkəmə çəkişmələrində iddiacının vəkili kimi Piriyev Sirac Sabir oğlunun əməyini, onun peşəkar xüsusiyyətlərini, işə hüquqi aspektən hərtərəfli düzgün yanaşmasının və necə də səbrli olmasının şahidi olduq. O, bir il altı aydan çox davam edən məhkəmə çəkişmələrində Ali Məhkəməyədək "AtaHolding" MMC-nin hüquqlarını müdafiə etdi və "AtaHoldingin" haqlı tələbini sübuta yetirdi. Buna görə vəkil Piriyev Sirac Sabir oğluna təşəkkür edirik, onun timsalında Vəkillər Kollegiyasının bütün üzvlərinə, Anar müəllim şəxsən sizə minnərdarlığımızı bildiririk.

"AtaHolding" MMC-nin kollektivi və rəhbərliyi adından Sizə və Vəkillər Kollegiyasının hər bir üzvünə bu çətin, lakin şərəfli işdə bir daha uğurlar diləyirik.

**Hörmətlə,**

**"AtaHolding" MMC-nin İdarə Heyətinin sədri** **Kamilov Əşrəf Kamil oğlu**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2312
«08» 08 2022 il

S.Rüstəm küç. 9, Bakı, AZ1014, Azərbaycan
Tel.: (994 12) 598 99 00 / Faks: (994 12) 598 99 44
E-mail: ataholding@ataholding.az / www.ataholding.az